# Vətənin harayına hay verən igid döyüşçü

**Ömrünün baharındaydı. Arzularla, ümidlərlə dolu gələcəyinin xəyalları ilə yaşayırdı. Fikrət Əli oğlu Hacıyev 1964-cü il mayın 19-da Goranboyun Qızılhacılı kəndində dünyaya göz açmışdı. 1978-ci ildə doğma kəndlərində səkkizinci sinfi bitirdikdən sonra Gəncə texniki-peşə məktəbində elektrik ixtisasına yiyələnmişdi.**

Goranboy rayon Hərbi Komissarlığı tərəfindən 1982-ci ildə əsgəri xidmətə çağırıldı. O, hərbi xidmətini Ufa şəhərində keçirdi. İntizamlı əsgər oldu. Elə buna görə də komandanlıq tərəfindən dəfələrlə mükafatlandırıldı. Əsgərlik müddətində hərbi texnikanın sirlərini mükəmməl öyrənməyə səy göstərdi.

Hərbi xidməti başa vurub Vətəninə qayıtdı. Fikrət Hacıyev Bakı Kooperativ Texnikumuna daxil oldu. Təhsilini başa vurduqdan sonra doğma kəndi Qızılhacılıya döndü. İxtisası üzrə əmək fəaliyyətinə başladı.

Onun sadə, sakit həyat yolunun nizamını müharibə pozdu. 1990-cı illərin əvvəllərində Qarabağda, Şərqi Zəngəzurda işğalçı, təcavüzkar ermənilərin amansız hücumlarının qarşısını almaq, həmin ərazilərdə yaşayan soydaşlarımızın imdadına çatmaq üçün savaşa atılan mərd oğullardan biri də Fikrət Əli oğlu Hacıyev oldu. O, 1991-ci ildə



könüllü olaraq cəbhəyə yollandı. Vətənin harayına hay verən Fikrət Hacıyev özü kimi qəhrəman Azərbaycan övladları ilə birlikdə ölüm-dirim savaşına qoşuldu. Fikrət Goranboy özünümüdafiə batalyonunun tərkibində Şəfəq, Zeyvə, Qaraçinar və digər yaşayış məntəqələrinin müdafiəsində fəal iştirak etdi. Onun son döyüşü 1992-ci il mayın 5-də oldu. Düşmən yenə qəfil hücuma keçmişdi. Ağır döyüş gedirdi. Fikrət Hacıyev bir neçə erməni quldurunu məhv etdi. Özü isə Vətən uğrunda qəhrəmancasına şəhid oldu. Qızılhacılı kənd qəbiristanlığında dəfn edildi.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə Fikrət Əli oğlu Hacıyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verildi. Goranboy rayonunda büstü qoyuldu. Ballıqaya kənd orta məktəbi qəhrəman döyüşçünün adını daşıyır.

Fikrət Hacıyev kimi qəhrəmanların adları doğma Azərbaycan xalqının qəlbində əbədiləşdi.

Birinci Qarabağ müharibəsində sinələrini düşmən güllələrinə sipər edən, Vətən torpaqları uğrunda döyüşlərdə hünər göstərən, cəsurluq, igidlik nümayiş etdirən Azərbaycanın mərd, qorxmaz, vətənsevər övladlarının arzusu 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində böyük Zəfərimizlə reallaşdı. Otuz ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalı altında qalmış Qarabağ və Şərqi Zəngəzur ərazilərimizi qəhrəman Azərbaycan Ordusu azadlığına qovuşdurdu. O torpaqlar uğrunda canından keçmiş bütün şəhidlərin ruhu əbədi rahatlıq tapdı.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 16 may, № 101.- S.10.